Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# “Daşınar əmlakın yüklülüyü haqqında" Qanununda edilmiş dəyişikliklər haqqında

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda daşınar əmlakın yüklülüyünün növləri müəyyən edilib. Daşınar əmlakın yüklülüyü dövlət, bələdiyyə və xüsusi yüklülük növlərinə bölünür. Qanunda edilmiş son dəyişikliklərə əsasən banka və ya digər kredit təşkilatına pul vəsaitlərinin tutulmasına dair tələblərin göstərildiyi icra sənədinin təsdiq olunmuş surətinin verilməsi də dövlət və bələdiyyə yüklülüyü hesab edilir.

Adıçəkilən Qanunla yüklülük sahiblərinin tələblərinin ödənilməsi növbəliyi müəyyən olunub. Qanuna edilmiş dəyişikliklərə qədər hesabda olan pul vəsaitinə yüklülük sahiblərinin tələbləri Azərbaycan Respublikası Mülki Məcəlləsinin 965-ci maddəsində müəyyən edilmiş növbəliklə ödənilirdi. Dəyişikliklərdən sonra Mülki Məcəllənin müvafiq maddəsinə istinad ləğv edilib və hesabda olan pul vəsaitinə yüklülük sahiblərinin tələblərinin ödənilməsi növbəliyi ancaq Qanunun müvafiq maddəsi ilə tənzimlənir.

Həmçinin, Qanuna edilmiş dəyişikliklərə qədər yüklülük, yüklülüyə dəyişikliklər edilməsi və yüklülüyə xitam vermə haqqında bildirişlərin reyestrə daxil edilməsinə, habelə reyestrdə məlumat axtaran şəxsin sorğusu əsasında ona axtarışın nəticələrinə dair kağız daşıyıcılarda təsdiqlənmiş hesabatın verilməsinə görə haqq tutulurdu. Hazırda isə yüklülüyə xitam vermə haqqında bildirişlərin reyestrə daxil edilməsinə görə haqq tutulması ləğv edilib, yalnız yüklülük və yüklülüyə dəyişikliklər edilməsi haqqında bildirişlərin reyestrə daxil edilməsinə görə haqq ödənilməsi nəzərdə tutulur.

Eyni zamanda dəyişikliklərə qədər reyestrə daxil edilən yüklülük haqqında bildirişdə borclu və ya yüklülük verən fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, FİN və ya vergiödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), əlaqə məlumatları, əcnəbi olduqda isə onun pasportunun seriyası, nömrəsi və əlaqə məlumatlarının da qeyd edilməsi nəzərdə tutulurdu. Burada fiziki şəxsin FİN və ya vergiödəyicisinin eyniləşdirmə nömrəsi məlumatlarının müəyyən edilməsi fiziki şəxsi VÖEN məlumatlarının daxil edilməsi məqamında seçim qarşısında qoyurdu. Lakin

son dəyişikliyə əsasən fiziki şəxsin vergi ödəyicisi olduğu təqdirdə belə məlumatların da bildirişə qeyd edilməsi bir qayda olaraq müəyyən edilib.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/35586
http://e-qanun.az/framework/41124